*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 405-410*
https://doi.org/10.62837/2024.3.405

**TÜNZALƏ HƏMİDOVA NAMIQ**
Bakı Slavyan Universiteti
*E-mail:* *hamidlitunzale@gmail.com*

# AFAQ MƏSUD “O”HEKAYƏSİ VƏ ƏBÜLHƏSƏN ƏLƏKBƏRZADƏ “BOŞANDI” HEKAYƏLƏRİNDƏ QADIN AZADLIĞI PROBLEMİNƏ BAXIŞ

***Açar sözlər:*** *Qadın, ailə, xəyanət, boşandı, Afaq Məsud, Əbülhəsən Ələkbərzadə*
***Key words:*** *Woman, family, betrayal, Its over, Afaq Masud, Abulhasan Alekbarzadeh*
***Ключевые слова:*** *Девушка, семья, предательство, в разводе, Афак Месуд , Алекбар Алекбарзаде*

Azərbaycan qadınının hüquqlarının pozulması,ailə daxilində əzilməsi,söz haqqının olmaması,qadına yalnız ev işləri görüb, nəsil artıran bir məxluq kimi baxılması,qadınların və cəmiyyətin bu halı normal qarşılamasını qəbul edə bilməyən yazıçılarımız, öz yaradıcıqlarında bu mövzuya geniş yer ayırmış,öz əsərləri vasitəsilə qadın azadlığı uğrunda mübarizəyə başlamışlar.Azərbaycan ədəbiyyatının görkəmli yazıçıları olan ,Əbülhəsən Ələkbərzadənin və Afaq Məsudun yaradıcılığında qadın emansipasiyası mövzusu mühüm yer tutur.

Azərbaycan qadını müstəqilliyi,yeni cəmmiyyətin tamhüquqlu üzvü olması mövzusu XX əsrin əvvələrindəki cəmiyyətin sosial probleminin Ə.Əbülhəsən yaradıcılığında psixoloji təhlil obyektinə çevrilmişdir.Ümumiyyətlə Ə.Əbülhəsənin yaradıcılığında təsvir olunan bütün qadın obrazları həyat prototipləri kimi qəbul edilir.

Müəllif ilk növbədə ədəbi əsərlərində ictimai həyatın təzahürünə çevrilmiş qadın hüquqsuzluqları məsələsinə toxunmuş,real obrazları real şəraitdə təsvir etmiş,qadının daxili aləmini açmış,onların dünyası,xarakterləri və psixoloji vəziyyəti parlaq bədii rənglərlə göstərməyə,dövrün tələbləri ilə ayaqlaşmağa nail olmuşdur.

Ə.Ələkbərzadənin yaratdığı bütün qadın obrazları aşağılıq kompleksindən əziyyət çəkmələrinə baxmayaraq,dövr üçün xarakterik idi və dövrünə uyğun real rənglərində göstərilmişdir.Müəllifin yaratdığı hər bir obrazlarının özunəməxsus fərqli və səciyyəvi xüsusiyyətləti vardır.

Ə.Ələkbərzadə hekayələrində yaradılmış və qadın mövzularına həsr olunmuş qadın obrazları silsiləsi ilk növbədə Azərbaycan qadınlarının mətanətini,iradəsini,fəallığını göstərir,oxucuların diqqətini cəlb edir.Bu qadın obrazlarında onların azadlıq,müstəqillik susuzluğu,yeni ictimai həyat arzusu,daxili ağrı,yeni həyat yaratmaq istəyi bizi cəlb edir.İnsanda belə bir təəssürat yaranır ki,onlar qaranlıqdan qaçaraq işıqlı həyata,azad gələcəyə can atırlar.Qul və tutqun

keçmişdə alçaldılmış və təhqir olunmuş,mənəvi dünyasına və şəxsi həyatına heç bir haqqı olmayan qadınlar,taleyinə düşən azadlıqdan daha çox yararlanmağa çalışırdılar.

Müasir Azərbaycan yaradıcılarından biri olan Afaq Məsud daima öz yaradıcılığında qadın azadlığı probleminə toxunmuşdur.Afaq Məsud öz əsərlərində yaratdıgı qadın obrazlarının başına gələn üzücü hadisələri Şərq qadınlarının taleyinə bənzədir. Müəllif bildirir ki, əsərlərində yaratdığı qadın obrazlarının taleyi reallığı əks etdirir, cəmiyyətin yaratdığı stereotiplər qadınları zülmətə məhkum edir.Yazıçı öz əsərlərində yaratdığı qadın obrazlarını ayağlarına möhürlənmiş, onları irəli getməyə qoymayan bu zəncirləri qırıb atmağa çalışan insanın çəkdiyi zülmləri, üzüntüləri kimi təsvir etdiyini bildirir.

Afaq Məsud bildirir ki, Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra cəmiyyətdə bir çox məsələlərin düzgün istiqamətdə inkişaf etdiyi halda,ailə daxilində qadınların həyatında çox cuzi şəkildə nəyinsə dəyişdiyini vurğulayır. Qadınlar sosial həyatda hökm sürən stereotipləri qirmağa nail olsalarda, ailə daxili hüquqsuzluqlarla hələ də mübarizə aparırlar, buda ailə daxili münasibətlərin zədələnməsinə səbəb olur.

Afaq Məsudun yaratdığı qadın obrazları fərqlilikləri ilə seçilirlər. Bu obrazların fərqi budur ki, onlar məruz qaldıqları çətinliklərdən qorxmayan əksinə onlara qarşı cəsarətlə mübarizə aparan, çarəsizliyin qarşısında əzilməyən, mərd qadınlardır.Yazıcı qadın obrazlarının daxili aləminə enir, qadınların keçirdiyi duyğu və həyəcanları daha çox ön plana çəkir, bədii detallar vasitəsilə onların psixoloji durumunu oxucuya çatdırır.

Afaq Məsudun ”O” hekayəsində həm də,Ə.Ələkbərzadənin “Boşandı” hekayəsində hadisələr bir ailənin daxilində baş verir.Afaq Məsud öz hekayəsində obrazları adsız verdiyi halda Ə.Ələkbərzadə obrazları adları ilə vermişdir.Hər iki hekayədə qadın hüquqlarının pozulduğunu müşahidə edirik.Afaq Məsudun “O” hekayəsində bir kişinin iki qadının bədbəxtliyinə səbəb olduğunu görürük.Ə.Ələkbərzadənin ”Boşandı”hekayəsində isə Minanın öz doğma ata və qardaşı tərəfindən istəmədiyi biri ilə evləndirildiyini , hüquqlarının öz ailəsi tərəfindən tapdandığını müşahidə edirik .

Hər iki hekayədə müəllif qadınların düşdükləri situasiyaları və onların bu məqamda olan psixoloji vəziyyətlərini ,öz həyatları uğrunda apardıqları mubarizəni incə xəttlə işləyib oxucuya çatdırmaga çalışmışdır.

Afaq Məsud “O” hekayəsində iki qadın obrazı yaratmışdır.Bunlardan biri kişinin həyat yoldaşı digəri isə kişinin sevgilisidir.Bu qadın obrazları bir birindən fərqlənirlər.Belə ki,arvad ərinin ona xəyanət etdiyini bilir.Bu hal qadının əsəbi birinə çevirir.Onun hərəkət və davranışlarında bu əsəbilik hiss olunur.Qadın əri tərəfindən olan haqsızlığa əsəbi davranışları ilə reaksiya verir.Əri ilə mübahisə zamanı əri onu

itələyir və başı qapıya dəyərək qapıda çat əmələ gətirir.Bu mübahisə qadının mənəvi böhranına səbəb olur və qadın yaşadığı evdən də,ərindən də bezdiyini bu şəkildə bildirir.

‘‘Bəh-bəh!Çatın biri tavanda,biri də qapıda.Bir yekəsi də döşəmədə açılsaydı bu xaraba dörd bölünərdi, ikimizində canı bir birindən qurtarardı.Bilirsən nə var çağır onu gəlib uşaqlarına da baxsın,xörəyinizi də bişirsin.Daha mən burdakı qulluqçuluq fəaliyyətimi başa vururam.’’[ 2.152]

Ərinin ona qarşı soyuq,sevgisiz münasibəti qadına o evdə qulluqçu olduğu hissi yaşadır və qadın bu münasibətə dözməyərək evi tərk edir.Qadının uşaqlarına rəğmən evi tərk etməsi onun qadınlıq qürurunun əri tərəfindən nə qədər tapdanıldığının göstəricisi idi.Lakin qadın öz mənəvi gücünü göstərərək öz qadınlıq qürurunun alçaldılmasına imkan vermir,əri tərəfindən düçar olduğu hüquqsuzluğa qarşı öz duruşunu sərgiləyir və evi tərk etməklə öz həyatına bir növ sahib çıxır.

Digər qadın obrazı isə kişinin sevgilisi idi.Hekayə boyu bu qadın obrazı “O”adlandırılmışdır.Müəllif qadının təsvirini oxucular üçün belə verir. ‘‘Onun üzü solğun ve xəstəxal görünürdü. Səsi də elə bil solmuş gözlərinin altı qaralmışdı,bəbəkləri hardasa uzaqlardan baxırdı ona.Gözləri elə bil dustaqxanadaydı’’[ 2. 149]

Məhz bu təsvir vasitəsilə qadının depressiyada olduğunu,sağlam düşünə bilmədiyini,özü-özünü saldığı bu halın acı gerçəkliyini dərk edib,əzab çəkdiyini görürük.Qadın bu yaşadıqlarının bir yerdə sonlanmağını,bu vəziyyətin bir ad almasını istəyir.Buna görə də kişiyə ayrılmaq istədiyini desə də kişi razılaşmır.Əslində qadın özü də ayrılmaq istəmirdi.Kişinin ona hər şey yaxşı olacaq deyə verdiyi vədlərin yalan olduğunu,bu sözləri bəlkə də yüz dəfə eşitdiyini və hələ də heçnəyin dəyişmədiyini anlayır və əzab çəkirdi.Qadın bu yaşadıqlarına sevgilisinin ona və sevgisinə sahib çıxmamasına,qadınlıq qürurunun bu qədər alçaldılmasına etiraz olaraq intihar edir.Qadının ölümü onun çəkdiyi əzab və iztirablara son qoyur.Hekayədəki digər qadın obrazı kimi O mənəvi cəhətdən güclü ola bilmir.Əslində bu obrazlarla Afaq Məsud oxucuya bu fikiri çatdırmağa çalışır.Qadın istəyərsə özünü şəhzadə,istəyərsə kölə edər.

Ə.Ələkbərzadənin Boşandı hekayəsinin əsas qəhrəmanı olan Mina köhnə adət-ənənələrnən ailə qurub sevgi uğrunda mübarizə aparan güclü obrazdı. O,təhsilsizdir,ata və qardaşı tərəfindən məcburi şəkildə Abbasla evləndirilir.Bir ay yarım evli olmasına baxmayaraq xoşbəxt olmadığı bu evdən azad olmaq , Abbasdan ayrılmaq qərarına gəlir.Abbasa ayrılmaq istədiyini söylədikdə Abbas onunla mübahisə edərək Minanı döyür.Mina isə buna boyun əymir öz etirazını bu şəkildə göstərir.

‘‘Anam məni döyülmək və söyülmək üçün doğmayıb.... ’’[ 1.189]

Mina Abbasla mübahisə etdiyi gün o evi tərk edir.Hekayənin sonuncu hissəsində biz artıq Minanın Abbasdan bir ildiki ayrıldığını,dayısı oğlu Səmədlə nişanlandığını görürük.Yazıçı Minanın geyim tərzini təsvir edir,onun əvvəlki kimi deyil,modern geyimini bu cür təsvir edir.

‘‘...Mina dikdaban,botin cunayı,təmiz kabut başında göyçək üzünü çox-çox tutan al kəlağayı,çarşabsız açıq saçıq dururdu.’’[1.190]

Bu bədii detal vasitəsilə müəllif Minanın keçmiş adət ənənənin buxovlarından,onun azadlığını məhdudlaşdıran zəncirlərdən azad olunduğunu oxucuya çatdırır.

Afaq Məsud “O” və Ə.Ələkbərzadənin “Boşandı” hekayələrində qadin obrazları kimi kişi obrazlarının bənzər və fərqli cəhətləri var.

Afaq Məsudun “O” hekayəsində yer alan kişi obrazı nə həyat yoldaşını nə də ki “O”-nu sevir.İlk başlardan”O”-nun sevdiyini zənn etsədə hekayənin sonunda oxucu onu öz daxili monoloqu ilə əsl reallığı öyrənir.Monoloq belə idi:

‘Gərək əslində hər şeyi necə olmuşdursa elə yazsın.Həmən o alovlu məhəbbətin getdikcə adi,fiziki təlabata çevrilməsindən,dostlarının qarşısında əttökən sevgi etiraflarına görə xəcalət çəkməsindən və s.’

Məhz bu fikirdən sonra bir kişinin iç üzünü görmüş oluruq. İki qadının həyatını zəhərə çevirən bu şəxsin əslində nə həyat yoldaşını ,nə də sevgilisini sevmədiyinin şahidi oluruq .

Ə.Ələkbərzadənin “Boşandı” hekayəsinin obrazı olan Abbas isə Minanı sevir.O boşanmaq istədikdə yalvarır,çıxıb getməsinə mane olmaq istəyir.

Hər iki obrazın oxşar cəhəti isə həyat yoldaşlarına fiziki şiddət göstərmələridir. Bu detalın verilməsi qadınlara hələ də ailə daxilində hörmət edilməməsini ,kişilərin qadınlar üzərində güc nümayiş etdirdiyinin acı təzahürüdür. Ümumi olaraq həm,Afaq Məsudun həm də Əbülhəsən Ələkbərzadənin yaratdığı qadın obrazları öz talelərinə boyun əyməyən,haqsızlıqlara göz yummayan,qarşılaşdıqları hüquqsuzluqlara qarşı öz etirazlarını bildirə bilən,mənəvi cəhətdən güclü olan qadınlardır.

## ƏDƏBİYYAT

1.Azərbaycan Nəsri Antologiyası .Beş cilddə .III cild. Şərq - Qərb .Bakı 2006 .
2. Afaq Məsud.Seçilmiş əsəsrləri Elm və təhsil Bakı 2012. 591 səh.
3.Təhsin Mütəllimov.Əbulhəsən yaradıcılığı.Bakı.Azərnəşr 1969
4. https://www.anl.az/down/meqale/525/2017/iyun/545907.htm

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 405-410*

## AFAQ MƏSUD "O"HEKAYƏSİ VƏ ƏBÜLHƏSƏN ƏLƏKBƏRZADƏ "BOŞANDI" HEKAYƏLƏRİNDƏ QADIN AZADLIĞI PROBLEMİNƏ BAXIŞ

**Xülasə**

Ədəbiyyatımızda hər zaman aktuallığını qoruyub saxlayan mövzulardan biri də qadın taleyi, onların azadlığı problemidir. Demək olar ki bütün yazıçılar bu mövzuda öz qələmlərini sınamışlar. Bu yazıçılar arasında Afaq Məsud və Əbülhəsən Ələkbərzadə özünə məxsus üslubları ilə seçilmişlər. Təhlil etdiyimiz hər iki hekayədə qadın obrazlarına müəllif mövqeyinin fərqli olduğunu gördük. Afaq Məsud "O" hekayəsində bir kişinin həyatında rol oynayan iki fərqli qadını təsvir etdiyi halda, Əbülhəsən Ələkbərzadə " Boşandı" hekayəsində iki kişinin həyatinda rol alan qadını oxucuya təqdim edir.Hər iki hekayənin qadın obrazları arasında oxşar və fərqli cəhətlər özünü göstərir. Afaq Məsud qadın obrazları daha çox həssas, emosional , psixoloji cəhətdən zəif olduğu halda, Əbülhəsən Ələkbərzadənin qadın obrazı nikbin, cəsarətli və güclüdür. Hər iki hekayənin müqayisəli təhlili bizə obrazlar arasindakı fərqləri, oxşar cəhətləri, müəlliflərin qələm fərqini anlamağa oxucuya imkan yaradır.

**TUNZALA HAMİDOVA NAMIQ**

## A VIEW OF THE PROBLEM OF WOMEN'S FREEDOM IN THE STORY OF AFAQ MASOUD "HE" AND THE STORIES OF ABULHASAN ALAKBARZADE "DIVORCE"

**Summary**

One of the topics that always remains relevant in our literature is the fate of women and the problem of their freedom. Almost all writers have tried their hand at this topic. Among these writers, Afaq Masoud and Abulhasan Alekbarzadeh were selected for their unique styles. In both stories we have analyzed, we have seen that the author's position towards female characters is different. While Afaq Masud describes two different women who play a role in one man's life in the story "O", Abulhasan Alakbarzade presents to the reader a woman who plays a role in the life of two men in the story "Divorced". The female characters of both stories show similar and different aspects. While Afaq Masud's female characters are more sensitive, emotional, and psychologically weak, Abulhasan Alakbarzade's female character is optimistic, courageous and strong. The comparative analysis of both stories allows the reader to understand the differences between the characters, the similarities, and the difference in the authors' pen.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 405-410*

# ВЗГЛЯД НА ПРОБЛЕМУ СВОБОДЫ ЖЕНЩИН В ИСТОРИИ АФАКА МАСУДА «ОН» И ИСТОРИЯХ АБУЛХАСАНА АЛАКБАРЗАДЕ «РАЗВОД»

## Резюме

Одна из тем, которая всегда остается актуальной в нашей литературе, — судьба женщины и проблема ее свободы. Практически все писатели пробовали свои силы в этой теме. Среди этих писателей Афак Масуд и Абулхасан Алекбарзаде были выбраны за их уникальный стиль. В обеих проанализированных нами повестьх мы увидели, что позиция автора по отношению к женским персонажам различна. В то время как Афак Масуд описывает двух разных женщин, играющих роль в жизни мужчины в рассказе «О», Абулхасан Алекбарзаде представляет читателю женщину, играющую роль в жизни двух мужчин в рассказе «Разведенные». женские персонажи обеих историй демонстрируют схожие и разные аспекты. Если женские персонажи Афака Масуда более чувствительны, эмоциональны и психологически слабы, то женский персонаж Абулхасана Алекбарзаде оптимистичен, смел и силен. Сравнительный анализ обеих повестей позволяет читателю понять различия между героями, сходство, различие пера авторов.

***Rəyçi: Ə.Məmmədova***